Ədəbiyyat QƏZETİ

# Vüqar ƏHMƏD - 60



Hörmətli Vüqar Əhməd!

Sizi - tanınmış ədəbiyyatşünas alimi və şairi 60 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 17 aprel 1963-cü ildə Bakı şəhərində anadan olmusunuz. 1980-ci ildə Bakıdakı M.Müşfiq adına orta məktəbi, 1984-cü ildə ADPU-nu, 1990-cı ildə Pedaqoji Universitetin aspiranturasını bitirmisiniz. 1992-cü ildə namizədlik, 2005-ci ildə doktorluq dissertasiyaları müdafiə etmisiniz.

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Mətbuat tarixi və publisistika şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor, Türk Dünyası Beynəlxalq Elmlər Akademiyasının və Özbəkistan Respublikası "Turan" Elmlər Akademiyasının akademiki, Beynəlxalq Elm və İncəsənət Akademiyasının müxbir üzvü, "Türk Dünyasına Xidmət" Beynəlxalq Qızıl Medal laureatı, Turanın Xalq şairi, Beynəlxalq Elmlər Akademiyasının akademiki, YAP-ın üzvü, AMEA N.Gəncəvi adına Ədəbiyyat İnstitutunun ixtisaslaşmış doktorluq üzrə Müdafiə Şurasının üzvü, 45 kitab, 500 nəğmə müəllifi, Beynəlxalq Yazıçılar və Turan Beynəlxalq Yazıçılar Birliklərinin üzvü, Rusiya Dərbənd Ədəbiyyatçılar Birliyinin üzvü, Nyu-York Elmlər Akademiyasının üzvü, "İlin alimi" kimi ədəbi-ictimaiyyət sizi yaxşı tanıyır.

Hörmətli Vüqar müəllim!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, sizə uzun ömür, işlərinizdə yeni-yeni uğurlar arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**